AZAUDIT

Xəqani küç., 1, AZ 1000
Bakı, Azərbaycan
Telefon: (+994 12) 598 2070
(+994 12) 598 2524
Faks: (+994 12) 598 2526
Email: info@azaudit.az
Websayt: www.azaudit.az

## MÜSTƏQİL AUDİTOR RƏYİ

"AzSığorta" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə Heyətinə:

### Maliyyə hesabatları üzrə hesabat

Biz "AzSığorta" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2010-cu il tarixinə maliyyə vəziyyəti hesabatı, bu tarixdə başa çatan il üzrə mənfəət və zərər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan ibarət əlavə edilmiş maliyyə hesabatlarının və izahedici şərhlərin auditini apardıq.

**Maliyyə Hesabatları üzrə Rəhbərliyin məsuliyyəti**

Rəhbərlik bu maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun hazırlanmasına və düzgün təqdim edilməsinə görə məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar aiddir: maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar saxtakarlıq və ya yanlışlıqdan qaynaqlanan əhəmiyyətli kənarlaşmaların qarşısını almaq məqsədilə daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi.

***Auditorun məsuliyyəti***

Bizim vəzifəmiz apardığımız audit əsasında bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Biz auditi Beynəlxalq Audit Standartlarına uyöun apar mışıq. Həmin standartların tələbinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcüd olmamasına kifayət qədər əmin olaq.

Auditə maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizələrindən, eləcə də saxtakarlıq və səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektliliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, auditə mövcud mühasibat siyasətinin uyğunluğunun və rəhbərliyin uçot ehtimallarının əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, audit rəyimizi bildirmək üçün kifayət qədər və uyğun auditor sübutu əldə etmişik.

***Rəy***

Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından "AzSığorta" Açıq Səhmda Cəmiyyətinin 31 dekabr 2010-cu il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**Afiq İsrəfilov**
İdarəedici Partnyor

*01 mart 2011-ci il*
Bakı, Azərbaycan Respublikası